Food and Agriculture Organization of the United Nations

Ministry of Agriculture of the Republic of Azerbaijan



© FAO

QADINLARIN İŞTİRAKI İLƏ
İCMALARIN İNKİŞAFI

# Qadınların iqtisadi güclərinin artırılması yolu ilə ərzaq təhlükəsizliyi və kənd yerlərində yaşayış imkanlarının yaxşılaşdırılması

**Layihənin simvolu**
UTF/AZE/015/AZE

**Layihənin müddəti**
10.01.2020 – 10.01.2022

# **Məqsəd və vəzifələri**

Layihənin məqsədi qadınların iqtisadi güclərinin artırılması yolu ilə ərzaq təhlükəsizliyi və kənd yerlərində yaşayış imkanlarının yaxşılaşdırılmasına nail olmaqdır.


© FAO

**Layihə kənd təsərrüfatı ilə məşğul olan qadınlara aşağıdakı sahələrdə dəstək göstərir:**

- Heyvandarlıq, quşçuluq, arıçılıq, meyvə və tərəvəzçilik sahələrində texniki biliklərinin artırılması
- Təsərrüfatda gigiyenik qaydalar, kənd təsərrüfatında innovasiyalar, biznesin inkişafı və marketinq sahələrində bacarıqların artırılması
- İqtisadi imkanlara kişilərlə bərabər çıxışın əldə olunması

Bütün bu fəaliyyətlər qadınların kiçik təsərrüfatlarında məhsuldarlığın artmasına və nəticə etibarilə ölkədə qida təhlükəsizliyinin yaxşılaşmasına kömək edəcəkdir.

Layihə eyni zamanda gender bərabərliyi ilə kənd təsərrüfatı və qida təhlükəsizliyi arasında əlaqələrin olmasının başa düşülməsi və bu sahədə olan məsələlərin öz siyasət və təcrübələrində yer alması üçün Azərbaycanın kənd təsərrüfatı və kənd yerlərinin inkişafı sahəsində çalışan qərarverici qurumları ilə də iş aparmaqdadır.

# Layihənin benefisiarları

Kənd təsərrüfatı ilə məşğul olan qadınlar layihənin benefisiarlarıdır. Layihənin fəaliyyəti həm də kənd qadınlarının qida təhlükəsizliyinin, gəlirlərinin artması, qadınların müvafiq qurumlarda qərarverici proseslərdə iştirakının artması, səslərinin eşidilməsi və genderə həssas mühitin yaradılmasına istiqamətlənmişdir.




## Layihənin tərəfdaşları

- Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi (KTN);
- Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA);
- Dövlət Aqrar Ticarət Şirkəti;
- Kiçik və Orta Biznesin inkişafı Agentliyi (KOBİA);
- Dövlət Aqrar İnkişaf Mərkəzləri (DAİM);
- Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi;
- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi;
- Sahibkarlığın İnkişafı Fondu;
- ABAD İctimai Birliyi;
- Rayon İcra hakimiyyətləri və yerli bələdiyyələr;
- Qadın Assosiasiyaları və Regional Mərkəzlər.

## Hədəf rayonlar

Ağstafa, Qazax, Tovuz, Gədəbəy, Ağdam, Tərtər, Şəki, Zaqatala, Balakən, Qax, Şamaxı və İsmayıllı.

## Gözlənilən Nəticələr

Layihənin əsas nəticəsi kənd qadınlarının kənd təsərrüfatı məlumatlarına, biliyə, kreditə, emal vasitələrinə və bazarlara əlçatma imkanlarının yaxşılaşdırılmasıdır.

**Layihə, icra müddəti ərzində aşağıdakı nəticələrə nail olacaqdır:**

- Genderə həssas kənd yerlərində məsləhət xidmətlərinin gücləndirilməsi üçün imkan və boşluqların qiymətləndirilməsi və texniki dəstək təmin olunması;
- Qadınların özünütəşkili və məlumat şəbəkələrinə çıxışının dəstəklənməsi, sosial davranış dəyişikliyi üçün qadınların kənd təsərrüfatına və kənd həyatına töhfəsinin təşviqi və bu sahədə tədbirlərin icrası;
- Qadın fermerlər bazarlara və dövlət kreditlərinə daha yaxşı çıxışla təmin olunması, eləcə də, biznesin qurulması, genişləndirilməsi və marketinq üzrə bacarıqlarının artırılması.



# Layihənin icrası

2021-ci il 5 fevral tarixində layihənin yeni mərhələsinin başlanmasını qeyd etmək  məqsədilə "Çiçəklənən icmalar üçün qadınların səlahiyyətləndirilməsi" adlı virtual konfrans keçirilmişdir.

Konfransda iştirakçılar qeyri bərabər əmək haqqı, qeyri formal məşğulluq, sosial xidmətlərə zəif çıxış, eləcə də maliyyə resurslarına məhdud çıxışın olması,  uğurlu bizneslə məşğul olmaq üçün marketinq imkanlarının olmaması kimi kənd qadınlarının üzləşdiyi problemlər haqqında çıxış etmişlər.

Hökumət rəsmiləri, 20 rayondan qadın fermerlər, qadınların səlahiyyətləndirilməsi və sahibkarlığı sahəsində fəaliyyət göstərən QHT-lərin də təmsil olunduğu konfransda 100 qadın iştirak etmişdir.

**Layihə çərçivəsində 250-dən çox benefisiara texniki və biznes təlimləri keçirilmişdir.**





# QADINLARIN İŞTİRAKI İLƏ İCMALARIN İNKİŞAFI


## FAO Azərbaycan Bakı ofisi

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycan üzrə Tərəfdaşlıq və Əlaqələndirmə ofisi

**Ünvan:** 8-ci mikrorayon, 3123
**Əlaqə:** (+994)12 563 56 28
AZ 1115, Bakı, Azərbaycan
**Email:** fao-az@fao.org
**Tvitter:** FAOAzerbaijan

## FAO Azərbaycan FAPP ofisi

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycan üzrə Tərəfdaşlıq proqramının ofisi

**Ünvan:** Əhməd Rəcəli küç.,
Çinar Park Biznes mərkəzi 1/25,
Bakı,Azərbaycan
**Email:** faoaz-fapp-list@fao.org
**Əlaqə**: (+994)12 563 56 28



**Bəzi hüquqlar qorunur.**
Bu iş CC BY -NC -SA 3.0 IGO lisenziyası altında mövcuddur.

© FAO, 2021



CB7656AZ/1/11.21